# Şuşa zəfərinə gedən yol...

**Yaqublu Əliqismət Mükafat oğlu 1992-ci ildə Lerik rayonunun Kələxan kəndində anadan olub. Lerik şəhər 3 saylı orta məktəbin 9-cu sinfini bitirdikdən sonra 2007-ci ildə C.Naxçıvanski adına Bakı Hərbi Məktəbinə daxil olub. 2010-2014-cü illərdə Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbində təhsilini davam etdirib. TTM-də hərbi biliklərini inkişaf etdirən Əliqismət, 2015-ci ildə leytenant rütbəsi ilə Qobustanda yerləşən "N" saylı hərbi hissəyə təyinat alır. Elə həmin il yuxarı komandanlığına ərizə yazaraq ön cəbhədə xidmət etmək istədiyini bildirir. Gənc leytenantın arzusunu nəzərə alan rəhbərlik onu Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissəyə göndərir. 2016-cı il "Aprel döyüşləri" zamanı xüsusi qəhrəmanlıq göstərən Əliqismət döyüşlərdən sonra Qobustana təyinat alır. 2017-ci ildə yenidən öz istəyi ilə cəbhə bölgəsinə, Ağcabədiyə göndərilir. 2018-ci ildə baş leytenant Yaqublu Əliqismət Mükafat oğluna Xüsusi Təyinatlı Qüvvələrin xidmət rəisi kimi mühüm bir vəzifə tapşırılır.**

2020-ci il 27 sentyabr tarixində başlayan 2-ci Qarabağ müharibəsində Xüsusi Təyinatlı Qüvvələrin zabiti kimi ön cəbhədə döyüşlərə qoşulur. Əliqismət Yaqublu Murovdağ yüksəkliyi, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonunun və Laçının bir-neçə kəndlərinin işğaldan azad olunmasında xüsusi qəhrəmanlıq göstərir. Şuşa şəhərinin azadlığı uğrunda gedən döyüşlərdə düşmənin xeyli sayda canlı qüvvəsini məhv edərək sıradan çıxarır. Baş leytenant Əliqismət Yaqublu 05 noyabr 2020-ci ildə Daşaltıda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Şəhidin nəşi Lerik rayonuna gətirilərək Kələxan kəndində torpağa tapşırılır. Evli idi,iki azyaşlı övladı var. Beş yaşlı Əliəsgər və üç yaşlı Məhəmməd onun yadigarlarıdır.

Əliqismət Yaqublu Xüsusi Təyinatlı kəşfiyyatçı olduğu üçün Qarabağı əlinin içi kimi tanıyırdı. Xəritəni, topoqrafiyanı yaxşı bilən zabit idi. Qoşunların mövqeyini seçib, yerləşdirməyi məharətlə bacarırdı. Bir çox qoşun növlərinin, koloniyaların düzgün döyüş mövqelərini seçərək yerləşdirilməsində uğurlu əməliyyata nail olduğu üçün generalların sevimlisi idi. Əliqismətin vətənə olan sevgisi o qədər böyük idi ki, son döyüşdən əvvəl yaralı olmasını belə gizlədib döyüşlərdə iştirak etmişdi.

"N" saylı hərbi hospitalın baş həkiminin gündəliyindən: "Şuşa uğrunda döyüşlərdə sanitarlar çoxlu sayda ağır yaralılar və şəhidlər gətirirdilər.

Gətirilənlərin əksəriyyətində köhnə sağalmamış yaralar müşahidə olunurdu.

Bizim əsgər və zabitlərimiz döyüşə getmək üçün güllə və qəlpə yaralarını tibbi personaldan gizlədirlərmiş. Dünya tarixində heç bir müharibədə belə fədakarlıq olmayıb".

**P.S.** Nə qədər ağır olsa da bunu yazmalıyam - Şəhidimiz Əliqismət son döyüşə gedəndə bədənində qəlpə yarası varmış...

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etmiş, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı zabiti, baş leytenant Yaqublu Əliqismət Mükafat oğlu ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

Əliqismət Vətəninə, elinə, obasına, doğulub boya-başa çatdığı Lerik torpağına bağlı idi. İlin hər fəslindən zövq alırdı.

Baharın da, qışın da, payızın da, yayın da gəlişini səbirsizliklə gözləyirdi. Təbiətə olan vurğunluğu sakit vaxtlarında onu poeziyaya səsləyirdi. Əsl poeziya vurğunu olan Əliqismət təbiətin seyrinə çıxanda yadında qalan şeirlərdən səsləndirirdi. Onlardan biri mənim də yadımdadır.

### LERİKLİYƏM MƏN

*(Lerikin qəhrəman döyüsçülərinə)*

*Könlümdə ətri var baharın, yazın,*
*Nə vaxtdı çəkirəm dünyanın nazın.*
*Şirəli Müslümin, Mahmud Eyvazın,*
*Zirvədən boylanan söz şəkliyəm mən,*
*Lerikliyəm mən!*



*Qartallar tanıyır gözümdən məni,*
*Vətən ətri gəlir sözümdən mənim.*
*Soruşun döyüşdə "dözüm"dən məni,*
*Meydanda bir pələng biləkliyəm mən,*
*Lerikliyəm mən!*
*Suşa dağlarından keçib gəlmişəm,*
*"İsa bulağı"ndan içib gəlmişəm.*
*Şəhadət andını içib gəlmişəm,*
*Savaşda qələbə köynəkliyəm mən,*
*Lerikliyəm mən!*
*Sözün yanağında gecənin şehi,*
*Sükutun səsidir dağların mehi.*
*Qeyrət salamlayır şəhid Valehi,*
*Beş Milli Qəhrəman ürəkliyəm mən,*
*Lerikliyəm mən!*
*Alnımda Allahın işıqlı sətri,*
*Qəlbimdə imanın ucadı xətri.*
*Süfrəmi bürüyüb halallıq ətri,*
*Əzəldən urvalı, çörəkliyəm mən,*
*Lerikliyəm mən!*
*Suşa dağlarının zirvəsinə bax,*
*Qartal oğullara açıbdı qucaq,*
*Yurdumda bu payız bahar olacaq,*
*Gərək şəhid-şəhid çiçəkləyəm mən,*
*Lerikliyəm mən!*

Əliqismətlə bir məhəllədə böyüyüb boya-başa çatmışıq. Uşaqlıq illərimiz bir yerdə keçib, xatirələrinə bağlı biri idi Əli (biz ona aramızda Əli deyərdik) Universitetdə oxuduğum zaman vaxt tapan kimi tez-tez görüşər, söhbət edərdik, bəzən elə olardı ki, metroda, ictimai yerlərdə onunla təsadüfən qarşılaşardıq. O zamanlar Əli C.Naxçıvanski adına Bakı Hərbi Məktəbini bitirmiş, Heydər Əliyev adına Bakı Ali Hərbi Məktəbində təhsilini davam etdirirdi, mən isə tələbə idim. Hərbi formada görən kimi ona tez səslənirdim: - Yoldaş general, yoldaş general.

O da öz növbəsində əziz qardaş deyərək salamlaşıb, qucaqlaşardıq.

Savadlı, geniş düşüncəyə malik gənc, həm də çox səmimi insan idi. Həmişə "tanışlardan kimi görsən, salam söylə" deyərdi. Əziz dostum, ruhuna salam olsun!...

Mükafat müəllimə Allahdan səbr diləyir, Balayar Sadiqin bu misralarını yada salmaq istəyirəm.

### ŞƏHİD ATASINA MƏKTUB

Şəhid atası, yazıçı dostum, əziz qardaşım MÜKAFAT YAQUBA Allahdan səbr diləyirəm! Allah bütün şəhidlərimizə rəhmət eləsin, qardaş!

*Bu payız Qarabağ çiçəkləyibdir,*
*Şəhid ətri gəlir Şuşa sözündən.*
*Döyüşçü dostları Əliqismətin, -*
*Səni salamlayır Cıdır düzündən.*
*Torpaq məhəbbəti, yurd məhəbbəti,*
*Misraya sığmayan ulu duyğudur.*
*Şəhid oğulların döyüs yolları,*
*Vətənin boynunda gözmuncuğudur!*
*Tarix güzgü tutub şəhid yoluna,*
*Yaddaşı dil açıb qərinələrin.*
*İman ətri hopub ömrünə, qardaş,*
*Vətəni vətənə döndərənlərin.*
*"Təsəlli" sözünün taqəti yoxdur,*
*Ananın önündə bir addım ata.*
*Oğul itkisini alıb çiyninə,*
*Şəhid hünərinə söykənib Ata.*
*Heyrət heykəlisən, Şəhid atası,*
*Səndəki dözümə, taqətə qurban.*
*Vətən ətirlidir hər bir kəlamın,*
*Yaralı qəlbində qeyrətə qurban!*

**Ramal Məstiyev,**
**Lerik şəhəri**

Ədalət.- 2021.- 10 iyun.- S.4.